# Müasir mehmanxanaların istifadəyə verilməsi turizm sənayesinin inkişafına töhfəsini verir

***Turizm dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Azərbaycanda turizmin inkişaf etdirilməsi dövlətin əsas prioritet sahələrindəndir. Dövlətimiz turizm sahəsinin inkişafı iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamət elan edib. Son illər ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bunu bir daha sübut edir. Məqsəd turizmin ölkə iqtisadiyyatının dayanıqlı, səmərəli və rəqabətə davamlı sahəsinə çevrilməsindən ibarətdir.***





Azərbaycanda dincələn, respublikamızdan xoş təəssüratla ayrılan turistlərin etiraf etdikləri kimi, Azərbaycanda dincəlmək üçün yaradılan şərait hər kəsi qane edir. Qəbul edilən proqramlar əsasında turizm sahəsində beynəlxalq standartlara cavab verən üç və beşulduzlu mehmanxanalar tikilir.

Azərbaycan Prezidenti İlham Əliyevin turizm potensialı böyük olan bölgələrə etdiyi səfərləri zamanı, demək olar ki, hər dəfə yeni turizm obyektləri, otellər, restoranlar, istirahət parkları və sair istifadəyə verilir. Bütün bunlar, regionlarda yaşayan əhalinin, əsasən də, gənclərin işlə təmin olunması üçün böyük imkanlar yaradır. Bundan əlavə, turistlərə informasiyaların çatdırılması məqsədilə Xaçmaz, Quba, Şamaxı, Şəki və Lənkəranda, eləcə də, Dünya Bankının maliyyə vəsaiti hesabına Lahıcda turizm informasiya mərkəzlərinin fəaliyyətə başlaması da bölgələrdə turizmin inkişafına təkan verir.

Bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva Qax şəhərində "Ulu Yurd" Məhdud Məsuliyyətli Cəmiyyətinin "Yurd Hotel" mehmanxanasının açılışında iştirak müasir mehmanxana komplekslərinin yaradılması, qonaqlara yüksək səviyyədə xidmət göstərilməsinin təmin edilməsi, çox sayda turistlərin qəbulu üçün silsilə tədbirlərin reallaşdırılması turizm sektorunun inkişafında mühüm rol oynayıb. Bütün bunlar Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, ölkəyə gələn turistlərin sayının artmasına da zəmin yaradır.

Cari ilin yanvar-sentyabr ayları ərzində, Azərbaycana dünyanın 193 ölkəsindən 2 milyon 208,6 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Azərbaycanda turizmin inkişaf tempi, onu deməyə əsas verir ki, ölkəmizdə davamlı inkişaf tendensiyası uğurla həyata keçirilmişdir. Bu-

